Günahını aşkarda edənlərdən başqa bütün ümmətim bağışlanacaq

Əbu Hureyradan (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: “Mən Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Günahını aşkarda edənlərdən başqa bütün ümmətim bağışlanacaq. Bir kişinin gecə pis iş görüb, sonra Allah o əməlini örtdüyü halda səhər qalxıb: Ey filankəs! - mən axşam belə bir iş etmişəm - deməsi, günahı aşkara çıxarmaqdan sayılır. Rəbbi gecə günahını örtdüyü halda, o, isə səhər Allahın örtdüyünü aşkar edir”.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan etmişdir ki, günahkar müsəlmanı Allahın əfv edib, bağışlayacağına ümid edilir. Lakin günahını təkəbbürlə və həyasızcasına insanlara bildirən kəs isə istisnadır -bağışlanmağa layiq deyidir. O, gecə günah işləyir, Allah da o günahı örtdüyü halda səhər başqasına dünən filan günahı işlətdiyini danışır. Rəbbi onun günahını örtdüyü halda gecələyir, səhər durduqda isə o, Allahın örtdüyünü açır (öz günahını aşkara çıxarır)!!

http://sunnah.global/hadeeth/az/show/3756